# "Jurnalist ömrünün əbədiyyət nəğməsi" kitabı müxtəlif kitabxanalara paylanılacaq




**Şəhidliyə qovuşandan sonra ötən dörd il ərzində hərbi jurnalist Məhərrəm İbrahimovun xatirəsinin əbədləşdirilməsi üçün çox işlər görülüb.**

Binəqədi rayonunun M.Ə.Rəsulzadə qəsəbəsindəki Sahilboyu küçəsinə, oxuduğu 100 nömrəli tam orta məktəbin sinif otaqlarından birinə onun adı verilib, qəsəbədə yaşadığı evə xatirə lövhəsi vurulub, adı Azərbaycan Televiziyasının həyətindəki mərmər lövhədə peşə fəaliyyətini yerinə yetirərkən şəhid olan həmkarlarımızın sırasına yazılıb. 17 il çalışdığı Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın binasına barelyefi vurulub, xatirə guşəsi yaradılıb. Adına mükafatlar təsis edilib, turnir və yarışlar keçirilib. Yeni çapdan çıxan "Jurnalist ömrünün əbədiyyət nəğməsi" də 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilən həmkarımızın xatirəsini əbədiləşdirən daha bir yadigardır.

M.F.Axundzadə adına Mərkəzi Kitabxanada həmin kitabın kitabxanalara paylanılma kampaniyasında bu barədə danışılıb.

Tədbirdə çıxış edən Milli Kitabxananın direktoru professor Kərim Tahirov "Jurnalist ömrünün əbədiyyət nəğməsi" kitabının təqdimatının Azərbaycan Əlifbası və Azərbaycan Dili Günündə keçirilməsinin xoş hadisə olduğunu bildirib. O, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fərmanı ilə latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizin mədəni həyatında və yazı mədəniyyətimiz tarixində mühüm əhəmiyyətli hadisə kimi dəyrləndirib, şəhid-jurnalistin həyat yolunu əks etdirən "Jurnalist ömrünün əbədiyyət nəğməsi" kitabının Milli Kitabxananın saytı vasitəsilə 3 dildə təbliğ olunacağını qeyd edib.

Milli Məclisin deputatı Rizvan Nəbiyev erməni quldur birləşmələrinin mina terroru barədə bəhs edib və 2021-ci il iyunun 4-də peşə fəaliyyətini yerinə yetirərkən Kəlbəcər rayonunun Susuzluq kəndinə gedən yolda şəhid olan hərbi jurnalist Məhərrəm İbrahimovun da mina partlayışının qurbanlarından biri olduğunu bildirib.

Mərasimdə çıxış edən kitabın müəllifi, şəhid-jurnalistin qardaşı Əsgər İbrahimov iştirakçılara təşəkkür edib və "Jurnalist ömrünün əbədiyyət nəğməsi" kitabını Milli Kitabxananın direktoru Kərim Tahirova təqdim edib.

Azərbaycan.- 2025.- 2 avqust (№ 159).- S.11.